# 11 AYIN SULTANI - RAMAZAN!

Ramazan - Hicri təqviminin 9-cu ayı. İslam dininin etiqadına görə, Məhəmməd Peyğəmbərə Quran ayələrinin enməyə, eyni zamanda müsəlmanların oruc tutumağa başladığı aydır. Bu ayda oruc tutmaq İslamın beş şərtindən biridir...

**Azərbaycanda Ramazan ayı aprelin 14-də başladı. Ramazan ayı adətən 29-30 gün çəkir və ayın aypara görünümünü almasından başlanır.**

***(Əvvəli ötən sayımızda)***

Rəvayətlərdə yazılıb ki, Ramazan ayında səmanın qapıları açıq olur, yəni digər aylarla müqayisədə bu ayda insanların Allaha qəlbən yaxınlaşması daha asandır. Rəvayətlərdə bu da var ki, Ramazan ayında Behiştin qapıları açıq olur, yəni orucluğun bərəkəti, bu ayda diqqətini Allaha yönəldib Rəbbi qarşısında itaətkarcasına təslim olmaq sayəsində insanın xeyir işlər görməsi üçün gözəl fürsət və mənəvi güc yaranır.



### Nafilə namazları qılmaq

Gün ərzində və gecələr qılınan namazlar üçün tövsiyə olunmuş 34 rükətlik nafilə namazları olduqca qiymətlidir. Ramazan ayı bu namazların qılınması üçün gözəl bir fürsətdir.

### Ramazan ayının əməlləri

İnsanların mənəvi-psixoloji tərbiyəsində olduqca böyük təsirə malik olan bu əməllər 2 qrupa bölünür:

1. Mübarək Ramazan ayının müştərək əməlləridir, konkret gecəyə, yaxud günə aid deyil.

Bunlar özləri də 4 qismə bölünür:

1. Mübarək ayın hər gecəsi və hər gündüzü yerinə yetirilən əməllər.
2. Mübarək ayın gecələrinə aid olan əməllər.
3. Bu ayın olduqca fəzilətli səhərlərinə aid olan əməllər.
4. Mübarək ayın gündüzlərinə aid olan əməllər.

Mübarək Ramazan ayında hər gecə və hər gündüz yerinə yetirilən əməllər:

1. Quran oxumaq;
2. Günün vacib namazlarından sonra aşağıdakı dualar oxunur:

Oxunuşu: Bismillahir-Rəhmanir-Rəhim. Ya əliyyu, ya əzim. Ya ğəfuru, ya rəhim. Əntər-rəbbul əzim. Əlləzi ləysə kəmislihi şəy. Və huvəs səmiul bəsir. Və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fazzəltəhu ələş şuhur. Və huvəş-şəhrulləzi fərəztə siyaməhu ələyy. Və huvə şəhru rəməzan. Əlləzi onzəltə fiyhil Quran. Hudən linnasi və bəyyinatin min əl-huda vəl-furqan. Və cəəltə fihi ləylətəl-qədr. Və cəəltəha xəyrən min əlfi şəhr. Fəya zəl-mənni və la yumənnu ələyk, munnə ələyyə bifəkaki rəqəbəti minən-nar. Fiymən təmunnu ələyh. Və ədxilnil-cənnətə. Birəhmətikə ya ərhəmər -rahimin.

Tərcüməsi: Ey ulu, ey əzəmətli, ey bağışlayan, ey rəhm edən, Sən böyük Allahsan. Elə Allah ki, Ona bənzər yoxdur. O, eşidən və görəndir. Bu Ramazan ayı, Sənin bütün başqa aylardan böyük və hörmət etdiyin, şərəfli edib, üstün tutduğun bir aydır. Elə bir ay ki, onda oruc tutmağı mənə vacib etmisən. Və o, insanların hidayəti üçün Quranı və haqqı batildən ayıran, doğru yola yönəldən açıq-aşkar dəlilləri nazil etdiyin Ramazan ayıdır və o, Ramazan ayında Qədr gecəsini qərar verib, o gecəni min aydan xeyirli etdin. Ey minnət sahibi, Sənə minnət göstərilməz. Mənə, minnət göstərilən bəndələrinin dəstəsində əzabdan azad etməklə minnət qoy və məni cənnətə daxil et, ey mərhəmətlilərin daha mərhəmətlisi!

### 2-cu dua

Oxunuşu: Bismillahir-Rəhmanir-Rəhim. Əllahummə ədxil əla əhlil-quburis-surur. Əllahummə əğni kullə fəqir. Əllahummə əşbi kullə cai Əllahumməksu kullə uryan. Əllahumməqzsi dəynə kalli mədin. Əllahummə fərric ən kulli məkrub. Əllahummə ruddə kullə ğərib. Əllahummə fukkə kullə əsir. Əllahummə əslih kullə fasidin min umuril-muslimin. Əllahum məşfi kullə məriz. Əllahummə suddə fəqrəna biğinak. Əllahummə ğəyyir suə halina bihusni halik. Əllahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr. İnnəkə əla kulli şəy'in qədir.

Tərcüməsi: Allahım, qəbiristan əhlinə şadlıq verib, onları sevindir. Allahım, bütün kasıb və yoxsulları dövlətli et. Allahım, bütün acları doyuzdur. Allahım, paltarı olmayan bütün yoxsulları geyindir. Allahım, bütün borcluların borclarını ödə. Allahım, bütün çətinlikdə yaşayanları qəm-qüssədən azad et. Allahım, bütün qəribləri öz vətənlərinə qaytar. Allahım, bütün əsirləri əsirlikdən qurtar. Allahım, möminlərin işlərinin fasidlərini islah et. Allahım, bütün xəstələrə şəfa ver. Allahım, Öz sərvətinlə bizim yoxsulluğumuzu aradan qaldır. Allahım, Öz gözəl halınla bizim uğursuzluğumuzu dəyişdir. Allahım, bizim borclarımızı ödə və bizə yoxsulluqdan nicat ver. Həqiqətən, Sən hər bir şeyə qadirsən!

### Ramazan ayının gecələrinə aid olan əməllər

1. İftar vaxtlarında Məsumlardan (ə) gəlib çatan kiçik həcmli duaları oxumaq:

Oxunuşu: Əllahummə ləkə sumtu və əla rizqikə əftərtu və ələykə təvəkkəltu. Ya vasiəl məğfirəti iğfirli.

Tərcümə: Allahım, Sənin üçün oruc tutdum va Sənin verdiyin ruzi ilə iftar edirəm və Sənə təvəkkül edirəm. Ey mərhəməti çox olan Allah, məni bağışla.

2. İftar vaxtı "Qədr" surəsini oxumağın böyük mükafatı vardır.
3. İftar vaxtı dua etmək də çox yaxşıdır. Rəvayətdə deyilir ki, Məhəmməd Peyğəmbər (s) buyurmuşdur: "Oruc tutan şəxsin hər iftar zamanında etdiyi bir dua müstəcab olar".
4. Ramazan ayının hər gecəsində "İftitah" duasını oxumaq.
5. Hər gecəyə aid olan xüsusi namazı qılmaq.

### Ramazan ayının olduqca fəzilətli səhərlərinə məxsus əməllər

1. Səhər yeməyini yemək. Məhəmməd Peyğəmbərdən (s) belə bir rəvayət gəlmişdir ki, səhər yeməklərini tərk etməyin. Hətta bir xurma da olsa belə yeyin.
2. Səhər yeməyini yeyərkən Qədr surəsini oxumaq.
3. Səhər duasını oxumaq.

### Ramazan ayının gündüzlərinə məxsus olan əməllər

1. Mübarək Ramazan ayının müstəhəb əməllərindən biri Məhəmməd Peyğəmbərə (s) hər gün 100 dəfə salavat göndərməkdir. Bundan da artıq salavat göndərməyin fəziləti daha çoxdur.
2. Ramazan ayının gündüzlərinə məxsus olan duaları oxumaq ("Məfatihül-Cinan" kitabına müraciət oluna bilər).

2. Konkret gecələrə və gündüzlərə aid olan əməllərdir ki, bunlar üçün kifayət qədər savab və mükafatlar qeyd olunmuşdur.

Həmin əməllər bunlardır:

- Ayın ilk gecəsi
- Ayın ilk gündüzü
- 13-cü gecə
- 14-cü gecə
- 15-ci gecə
- Ramazan ayının yarıya çatdığı gün
- 17-ci gecə

### Ramazan ayının 1-ci gecəsi

1. Yeni doğmuş Ayın hilalını görmək üçün cəhd etmək; bəziləri bunu vacib (kifayi) hesab edirlər.
2. Ayın birinci gecəsi qüsl etmək; bəzi rəvayətlərə görə müstəhəbdir.
3. İmam Hüseyni (ə) ziyarət etmək, yaxud o Həzrətin (ə) ziyarətnaməsini oxumaq.
4. Ayın birinci gecəsindən etibarən Ramazan ayının 1000 rükət namazının qılınmasına başlamaq

### Ramazan ayının birinci günü

1. Qüsl etmək.
2. Gülabla ətirlənmək.
3. İki rükət namaz qılmaq: 1-ci rükətdə "Həmd" və "Fəth" surələrini, 2-ci rükətdə "Həmd" surəsini, ardınca isə istənilən bir surəni oxumaq.
4. Ayın başlanması münasibətilə 2 rükət namaz qılıb, sədəqə vermək.

### Ramazan ayının 13-cü gecəsi

"Ləyali-bəyz"in (aydın gecələrin) birincisi olan bu gecədə üç əməlin yerinə yetirilməsi vacib buyurulmuşdur:

1. Qüsl etmək.
2. 4 rükət namaz qılmaq (arada hər 2 rükətdən sonra salamları demək şərtilə) və hər rükətdə 1 dəfə "Həmd", 25 dəfə "Tövhid" surəsini oxumaq.
3. Rəcəb və Şaban aylarının 13-cü gecəsində də qılınan 2 rükətli namazı qılmaq. Hər rükətdə "Həmd" surəsindən sonra "Yasin", "Mülk" və "Tövhid" surələrini oxumaq.
4. Ayın 13-cü, 14-cü və 15-ci gecələrində "Mücir" duasını oxumaq.

### Ramazan ayının 14-cü gecəsi

Bu gecə eynilə 13-cü gecə üçün şərh edilən qaydada 4 rükət namaz qılınır (arada hər 2 rükətdən bir salamları demək şərtilə).

Ramazan ayının 15-ci gecəsi

Bu gecə çox dəyərli və fəzilətli gecələrdən biridir və onun üçün də bəzi əməllər nəzərdə tutulmuşdur:

1. Qüsl etmək.
2. 6 rükət namaz qılmaq (arada hər 2 rükətdən bir salamları demək şərtilə). Hər rükətdə "Həmd", "Yasin", "Mülk" və "Tövhid" surələri oxunmalıdır.
3. 100 rükət namaz qılmaq. Hər rükətdə Həmd dən sonra on dəfə "İxlas" surəsi oxunmalıdır.
4. İmam Hüseyni (ə) ziyarət etmək.

### Ramazan ayının yarıya çatdığı gün

Hicri tarixi ilə 3-cü ilin Ramazan ayının 15-i İmam Müctəbanın (ə) anadan olduğu gündür. Bəzi məlumatlara görə İmam Məhəmməd Təqinin (ə) təvəllüdü də hicri 195-ci ilin bu gününə təsadüf edir. Lakin bu məlumat o qədər də geniş yayılmamışdır

Hər halda, bu gün çox böyük fəziləti olan bir gündür, bu gündə sədəqə vermək, xeyir işlər görmək və yoxsullara yardım etməyin çoxlu mükafatı vardır.

### Ramazan ayının 17-ci gecəsi

Bu gecə çox mübarək bir gecədir. Bu gecə İslam peyğəmbəri (s) Bədr torpağında Qüreyş kafirlərindən ibarət bövük bir ordu ilə üz-üzə gəlmiş, 17-ci gün Bədr döyüşü baş vermiş və Allahın köməyi ilə İslam ordusu müşriklərə qalib gəlmişdir. Halbuki, bu döyüşdə müsəlmanlar həm sayca az olmuş, həm də çox az hərbi sursata malik olmuşlar. Bu qələbə İslam dininin ən böyük qələbələrindən biri hesab olunur. Ona görə də alimlər deyirlər ki, həmin gün qüsl etmək, sədəqə vermək, Allaha şükr etmək müstəhəbdir. Ayın 17-ci gecəsi ibadət etməyin də saysız-hesabsız fəzilətləri vardır.

*(Ardı var)*

**Hazırladı: İ.SABİRQIZI**